***Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC)***

***Rektoru professor ƏDALƏT MURADOVA***

**Hörmətli Ədalət müəllim!**

Bu gün məzunu olduğum, Azərbaycanın nüfuzlu elm və təhsil ocağı sayılan Azərbaycan Dövlət İqtisad Univeritetinin ***90*** yaşı tamam olur. Bu əlamətdar gün münasibətilə Sizi və rəhbərlik etdiyiniz Azərbaycan Dövlət İqtisad Universitetinin bütün kollektivini, tələbə və məzunlarını ürəkdən təbrik edir, şərəfli və uğurlu fəaliyyətinizdə müvəffəqiyyətlər arzulayıram.

İqtisad Universiteti yarandığı vaxtdan etibarən nailiyyətlərlə zəngin şərəfli bir yol keçmişdir. Qürur hissi ilə qeyd etmək itəyirəm ki, ömrümün yarıdan çoxu bu Universitetdə keçib. Mənim nəinki tələbəlik illərim, hətta ilk əmək fəaliyyətim də bu müqəddəs təhsil ocağı ilə bağlıdır. Alimlərin, adlı-sanlı iqtisadçıların, dövlət və ictimai xadimlərin yetişdirilməsində, hazırlıqlı kadr potensialının davamlı təkmilləşdirilməsi və elmi-intellektual mühitin inkişaf səviyyəsinin yüksəldilməsində UNEC-in rolu danılmazdır.

Əminəm ki, Sizin rəhbərliyinizlə Universitetimiz ölkədə ali təhsilin, elmin ənənələrinin zənginləşdirilməsi, gənc nəslin dövlətçilik ideyalarına sədaqət ruhunda tərbiyə olunması, layiqli dövlət, ictimai, siyasi və elm xadimlərinin yetişdirilməsi işini davam etdirəcəkdir.

***Hörmətlə,***
***professor MİRDAMƏD SADIQOV***